**"Gün gələcək və bu gün işğal altındakı torpaqlar azad olunandan sonra orada qaldırılacaq Azərbaycan bayrağı Azadlıq meydanına gətiriləcək və hərbi paradda göstəriləcək". O gün gəldi! Silahlı Qüvvələrin yaradılmasının 100 illik yubileyi münasibətilə 2018-ci il iyunun 26-da Bakının Azadlıq meydanında təntənəli hərbi paradda Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin səsləndirdiyi bəyanat iki il sonra – 2020-ci il dekabrın 10-da həmin ünvanda gerçəkləşdi. Vətən müharibəsində böyük Qələbəmizə həsr olunmuş Zəfər paradında "mənim Ali Baş Komandanım , mənim əsgərim, mənim zabitim,"- deyə hər bir soydaşımız müzəffər Azərbaycan Ordusu ilə qurur duydu.**



# Zəfər Paradı – tarixi qələbəmizin təntənəsi

## *Zəfər paradının tarixi, siyasi, ictimai və beynəlxalq- hüquqi əhəmiyyəti*

10 dekabr son 200 ilin ən möhtəşəm, ən parlaq hərb tarixini yazan Azərbaycan Ordusunun qüdrətinin nümayış olunduğu gündür!!! Vətən torpağının hər qarışı uğrunda qanı ilə tarix yazanların – şəhidlərimizin, qazilərimizin, əsgər və zabitlərimizin şərəfinin, qürurunun, igidliyinin, mərdliyinin təqdimatıdır Zəfər paradı! Bu günü bizlərə yaşadan şəhidlərimizi böyük ehtiram və sevgiylə anır, müqəddəs ruhları qarşısında baş əyirik! Bütün qazi, əsgər və zabitlərimizə sevgi və ehtiramımızı bildiririk.

Zəfər paradı möhtərəm Prezidentimizin bəyanatının, vədlərinin, Azərbaycanın ərazi bütövlüyü uğrunda beynəlxalq arenada apardığı mübarizənin təsdiqi günüdür! 17 ildə yaradılan hərbi strategiyanın, güclü ordu quruculuğunun məntiqi nəticəsinin nümayişidir. Ali Baş Komandanın 44 gündə böyük güclər qarşısında, diplomatik təzyiqlər önündə dəyanətinin, mərd duruşunun, əzminin təcəssümüdür!

Zəfər paradının şahidləri kimi taleyimizin xoşbəxt, əlamətdar hadisəsini yaşadıq həmin gün. Müstəqilliyimizin mübarizə məkanı olan Azadlıq meydanında Ali Baş Komandan, Prezident İlham Əliyevin və qardaş Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğanın tarixi çıxışları, 3000 nəfərdən artıq şəxsi heyətin iştirakı, Azərbaycan Silahli Qüvvələrinin 150-dək hərbi texnika, o cümlədən silahlanmaya yeni qəbul edilmiş müasir hərbi texnika, raket və artilleriya qurğuları, hava hücumundan müdafiə sistemlərinin, hərbi gəmi və katerlərin nümayiş olunduğu anlar tarixin yaddaşına əbədi həkk olundu.

Tarix göstərdi ki, müstəqilliyi qoruyub saxlamaq onu əldə etməkdən daha çətindir. Azərbaycan Xalq Cümhuriyyətinin qəbul edilmiş ən önəmli qərarlarından biri Azərbaycan Ordusunun yaradılması ilə bağlı olmasına baxmayaraq, iki il sonra süqut etdi. Azərbaycan Ordusunun ilk paradı 1919-cu ildə keçirilmişdi. Hərbiyyə naziri Səməd bəy Mehmandarov hələ yanvarın 31-də Gəncədə Novruz bayramı münasibətilə hərbi nümayiş keçirilməsinin hazırlığına dair əmr vermişdi. Respublika Mərkəzi Dövlət Yeni Tarix arxivində saxlanılan sənədlərdə göstərilir ki, Novruz bayramı münasibətilə hərbi nümayiş martın 22-də səhər saat 11-də Gəncənin Artilleriya meydanında keçirilib.

Bu, bir daha onu göstərir ki, müstəqilliyin, ərazi bütövlüyünün təminatı məhz güclü ordu ilə reallaşır. Müstəqilliyimizin bərpasının ilk illərində Azərbaycan torpaqlarının Ermənistan və havadarları tərəfindən işğalı da bu amillə bağlıdır.

Azərbaycanın tarixi Zəfər Qələbəsinə həsr olunmuş parad ordu quruculuğunun Azərbaycan dövlətinin prioritetlərindən biri olduğunu göstərdi. Təbii ki, güclü ordu həm də güclü iqtisadiyyat tələb edir. Azərbaycanın hər il genişlənən beynəlxalq enerji layihələri, iqtisadi imkanları həbi potensialının inkişafına zəmin yaratdı. Azərbaycanda istehsal olunan bir çox hərbi təyinatlı məhsullar ordumuzun potensialını gücləndirdi. Son illər ərzində 20-dən çox hərbi zavod yaradılması, 1200 addan çox hərbi təyinatlı müxtəlif məhsulların istehsalı və ixracı, ordumuzun müxtəlif ölkələrdən alınan müasir silah və texnikalarla təmin edilməsi Azərbaycan dövlətinin uğurlu hərbi strategiyasının bariz nümunəsidir. Yüzlərlə zirehli texnika, gözətçi gəmiləri, hərbi gəmilər, hava hücumundan müdafiə sistemləri, ən müasir standartlara cavab verən sistemlər, onlarla döyüş təyyarəsi, yüzdən çox döyüş və nəqliyyat helikopteri, ən müasir kəşfiyyat və döyüş pilotsuz uçuş aparatları, artilleriya qurğuları, uzaqmənzilli raketlər, yaylım atəşli raket sistemləri, əməliyyat-taktiki raket kompleksləri Azərbaycan Ordusunu maddi-texniki təchizatı baxımından dünya miqyasında tanıdır.

Güc amili dünyanın müxtəlif bölgələrində əsas amil kimi çıxış edir. Belə olan halda Azərbaycan siyasətində güclü ordu quruculuğunun dövlət prioritetinə çevilməsini labüd etdi. Vətən müharibəsi Azərbaycan siyasətində hərbi strategiyanın düzgün qurulduğunu bir daha təsdiq etdi. Azərbaycan Ordusu "Dəmir yumruq" əməliyyatı ilə torpaqlarını erməni işğalçılarından azad etdi. Bu mənada, Zəfər paradı beynəlxalq hüququn, tarixi ədalətin təntənəsi, ölkəmizin iqtidasi, hərbi gücünün, xalqın vətənpərvərlik ruhunun dünyaya nümayişidır.

Azərbaycan tarixinə mərdlik, qalibiyyət, qürur rəmzi kimi həkk olunan Zəfər paradı böyük əhəmiyyət daşıyır. Bu əlamətdar hadisənin, tarixi günün qeyd etdiyimiz aspektlərini şərh etməzdən öncə Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin Zəfər paradındakı çıxışının üzərində dayanmaq istərdim.

Dövlət başçısı nitqində həmin günün tarixi mahiyyətini sərrast açıqladı: "Azadlıq Meydanında paradlar çox keçirilib. Ancaq bu paradın xüsusi önəmi var. Bu zəfər paradıdır. Bu tarixi hadisədir". Ali Baş Komandanın fikri Zəfər paradının məntiqi olaraq tarixi qiymətini və əhəmiyyətini əks etdirir.



Prezident İlham Əliyev, eyni zamanda mənfur düşmənə və havadarlarına siyası mesaj verdi: "Bizim dəmir yumruğumuz həm birliyimizi, həm də gücümüzü təcəssüm etdirir. Bu dəmir yumruq düşmənin belini qırdı, düşmənin başını əzdi və bu gün biz qəhrəman xalq kimi bu bayramı qeyd edirik. Azərbaycanın müzəffər ordusu öz tarixi missiyasını yerinə yetirdi, Ermənistanı məğlub etdi. Ermənistan ordusu demək olar ki, yoxdur, məhv edilib. Bundan sonra əgər erməni faşizmi bir daha baş qaldırsa, nəticə də eyni olacaq. Yenə Azərbaycanın dəmir yumruğu onların belini qıracaq". Göründüyü kimi, ordumuzun Ermənistanın işğalçılıq təxribatına qarşı apardığı əks-hücum əməliyyatının "Dəmir yumruq" adlandırılması təsadüfi deyildi. Dəmir yumruq xalqımızın birliyinin, milli ruhunun, əzminin, gücünun, bütövlüyünün rəmzidir.

Ali Baş Komandan nitqində xalqımızın əzmini, iradəsini, torpaqlarını erməni işğalından qurtarmaq istəyini, qəhrəmanlığını Zəfər Qələbəmizi şərtləndirən əsas amil kimi qiymətləndirdi: "Mənfur düşmən döyüş meydanında məğlubiyyətə uğrayarkən mülki əhaliyə qarşı hərbi cinayətlər törədib, bizim şəhərlərimizi ballistik raketlərlə, fosforlu bombalarla, kaset bombalarla atəşə tutub. Bu namərd atəş nəticəsində 100-ə yaxın mülki vətəndaş, uşaqlar, qadınlar həlak olublar. Dörd yüzdən çox mülki vətəndaş yaralanıb, beş mindən çox ev dağıdılıb, ya da ki, o evlərə ziyan vurulub. Ancaq Azərbaycan vətəndaşı öz torpağından bir addım geri atmayıb. Dedilər ki, öldü var, döndü yoxdur, sona qədər gedəcəyik".

Başqa bir məqam: "Azərbaycan xalqı öz böyüklüyünü göstərdi, yüksək mənəvi ruhunu göstərdi. Bu Qələbənin səbəbkarı da Azərbaycan xalqıdır.







Zəfər paradı həm də 44 gün ərzində Azərbaycana hər cür mənəvi dəstək olan qardaş Turkiyənin, türk xalqının tarixində önəmli gündür. Türkiyə Prezidenti cənab Rəcəb Tayyib Ərdoğanın məxsusi Zəfər paradı üçün Azərbaycana səfəri, Azadlıq meydanında qəlbimizi qürurlandıran, yaddaşlardan silinməyəcək çıxışı, Vətən müharibəsinin şəhidlərinə ehtiram əlaməti olaraq, türk əsgərinin paradda Azərbaycan əsgərləri ilə çiyin-çiyinə mətin addımlaması, təkcə Bakı şəhərinin yox, bütün Azərbaycan şəhərlərinin, kəndlərinin Türkiyə və Azərbaycan bayraqları ilə bəzədilməsi qardaşlığımızın, birliyimizin ifadəsi, rəmzi oldu. Azərbaycan Prezidenti İlham Əliyevin dediyi kimi, bu tarixi zəfər Türkiyə-Azərbaycan birliyinin təcəssümüdür. Məhz bu məqamlar möhtəşəm günün siyasi aspektlərini, diplomatik xarakterini əks etdirir.

44 günlük müharibənin gedişatında olduğu kimi, 10 dekabr Zəfər paradında da bütün dünya, beynəlxalq ictimaiyyət "bir millət, iki dövlət" ifadəsinin real olaraq Azərbaycan-Türkiyə qardaşlığının, hərbi tərəfdaşlığının şahidi oldu. Dünya həm müharibədə, həm hərbi paradda Türkiyə sənayesinin, "Bayraktar" pilotsuz uçuş aparatlarının gücünü gördü.

Azərbaycanın mübarizəsinə ilk günlərdən etibarən dəstək verib, bütün imkanları ilə xalqımızın yanında olan Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycanın həm hərbi, həm də diplomatiya sahəsində əldə etdiyi uğurunda Prezident İlham Əliyevin rolunu xüsusi qeyd etdi. Ümummilli lider Heydər Əliyevi rəhmətlə anaraq Azərbaycan-Türkiyə münasibətlərində Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamının dillər əzbəri olduğunu, Qazi Mustafa Kamal Atatürkün dəqiq ifadəsi ilə "Azərbaycanın kədərini kədərimiz, sevincini sevincimiz bildiyini" vurğuladı: "Bu anlayışla Qarabağı otuz il boyunca sinəmizdə yara etdik. Bu gün də bu yaranın qapanmasının sevincini paylaşmaq, bu şanlı zəfəri birlikdə qeyd etmək üçün aranızdayıq".

Türkiyənin Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğanın Qələbəmizə həsr olunan Zəfər paradında iştirakı və səsləndirdiyi bəyanat Azərbaycan xalqı üçün qəlbləri riqqətə gətirən dəyərli fikirlər, eyni zamanda, bütün dünyaya siyasi mesaj idi. Zəfər paradının bu məqamları həmin günün siyasi baxımdan da böyük əhəmiyyətini ifadə edir.

Rəcəb Tayyib Ərdoğanın həm də lirik məqamları ilə qəlblərə toxunan çıxışı Türkiyə Prezidentinin Azərbaycan coğrafiyasına, mədəniyyətinə, tarixinə, ədəbiyyatına yaxından bələd olduğunu göstərirdi: "Şəhidlərimizin fədakarlığı sayəsində Azərbaycan ərazi bütövlüyünü, şükür olsun, yenidən təmin etmişdir. Artıq Azərbaycan torpaqları illərdir həsrət qaldığı Tərtər çayının sularına qovuşmuşdur. Şuşanın dağlarının başındakı duman artıq dərdli deyil. Girov qalmış xarı bülbül artıq azaddır və daha gözəl açacaqdır. Köndələnçay artıq daha coşqun axacaq. Araz nəğməsini daha güclü oxuyacaq. Qarabağ şikəstəsini oxuyan nəfəslər daha yüksək, daha güclü olacaqdır. Gözəlliyinə qurban olduğumuz Laçın, Şuşa, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Ağdam və Kəlbəcər artıq azaddır. Bu gün Azərbaycanın milli şairi, böyük mücahid Əhməd Cavadın, Nuru paşanın, Ənvər paşanın, Qafqaz İslam Ordusunun igid əsgərlərinin ruhunun şad olduğu gündür. Bu gün Azərbaycan şəhidlərinin sərdarı Mübariz İbrahimovun ruhunun şad olduğu gündür. Bu gün hamımız üçün, bütün türk dünyası üçün zəfər və qürur günüdür".

Otuz ilə yaxın Ermənistanın işğalı altında qalan Azərbaycanın tarixi Qarabağ bölgəsi düşmən əsarətindən xilas edildi. Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyev, şanlı Azərbaycan Ordusu və bütün xalqımızın birləşərək milli ruh, Vətən sevgisi və milli iradəsi, əzmi mənfur düşmənə tarix boyu unuda bilməyəcəyi ağır məğlubiyyət yaşatdı. Zəfər paradı Azərbaycanın tarixində qəhrəmanlıq, mərdlik, qalibiyyət təqvimi, Ermənistanın tarixinə məğlubiyyət günü kimi həkk olundu. Qələbəmizə həsr olunmuş Zəfər paradı təkcə, Azərbaycan Ordusunun hərbi potensialı, gücü ilə yadda qalmadı. Paradda həmçinin Vətən müharibəsi zamanı Azərbaycan Ordusunun darmadağın etdiyi Ermənistandan ələ keçirdiyi hərbi qənimətlərin bir qismi də nümayiş olundu. İşğalçı Ermənistan və bütün dünya Azərbaycan Ordusunun gücünün, qüdrətinin şahidi oldu. 30 ildə beynəlxalq təşkilatların edə bilmədiklərini Azərbaycan Ordusu 44 gündə həyata keçirdi. Düşmənin döyüş meydanında qoyub qaçdığı hərbi texnikaların göstərilməsi ilə Azərbaycan Ermənistana və onun havadarlarına, himayədarlarına siyasi mesaj verdi. Bu, həmçinin bütün dünyada işğala, hərbi təxribatlara cəhd etmək istəyən qüvvələrə, dövlətlərə ibrət dərsi idi. Bütün dünya görsün ki, gələcəkdə işğalçılıq siyasəti aparmaq istəyən dövlətləri də torpaq iddiası, soyqırımı siyasəti, ekoloji terror, vandalizm, uşaqların, mülki əhalinin qətlə yetirilməsi ilə xarakterizə olunan ağlasığmaz vəhşiliklər, hərbi cinayətlər törədən Ermənistanın aqibəti gözləyir.

Biz birlik, iradə, əzmkarlıq, milli ruh göstərərək tarixi missiyamızı yerinə yetirdik".

Bu fikirlər həm də ölkə başçısının xalqına, millətinə verdiyi yüksək dəyərin ifadəsidir.

Beynəlxalq ictimaiyyətin, BMT-nin Təhlükəsizlik Şurasının, ATƏT-in Minsk qrupunun da Zəfər paradından götürəcəyi Azərbaycan reallığı, təcrübəsi oldu. Ümid edək ki, beynəlxalq hüquqa məhəl qoymayan, Ermənistan və onun qeyri-konstruktiv siyasətinə etinasız yanaşan, ikili standart sərgiləyən dünya birliyi bundan sonra öz mandatından səmərəli və ədalətli istifadə edəcək. Bütün bunlar, Zəfər paradının beynəlxalq-hüquqi əhəmiyyətini göstərir.

Zəfər yürüşü bir də Azərbaycan xalqının ordusuna olan sevgisi, ehtiramı, sayğısı ilə yadda qaldı. Qlobal xəstəlik dövründə pandemiya şəraitinə baxmayaraq, Azərbaycanın müxtəlif regionlarından Zəfər paradını izləməyə gələn soydaşlarımız bu tarixi məqamı qürur hissi, böyük coşquyla yaşadı. Paradda məni duyğulandıran ən həssas məqam isə kiçik uşaqların böyük sevinlə küçələrdən keçən ordumuzu, əsgərlərimizi alqışlaması idi. Balaca əllərində Azərbaycan bayrağı "Ən böyük əsgər, bizim əsgər", "Şəhidlər ölməz, Vətən bölünməz", "Qarabağ Azərbaycandır" şüarı səsləndirən bugünkü uşaqlar sabah Vətənin keşiyində duran gəncliyimizdir. Kiçik qəlbində böyük Azərbaycan sevgisi daşıyan uşaqların coşqusu Zəfər paradının ən yadda qalan xatirələrindəndir. Bu mənada, Qələbəmizə həsr olunan bu tarixi təntənə – Zəfər paradı böyüməkdə olan nəslin vətənpərvərlik hisslərinin tərbiyə olunmasında müstəsna əhəmiyyət kəsb edir.

Bakıda Azadlıq meydanında keçirilən Zəfər paradı zamanı ordumuzun qüdrətinin, Azərbaycan-Türkiyə qardaşlığının, Ermənistanın məğlubiyyətinin bütün dünyaya nümayiş olunduğu vaxt Yerevanda Paşinyan hakimiyyətinə etiraz aksiyaları keçirilirdi. Zəfər paradı Azərbaycan xalqı üçün qürur, şərəf, ləyaqət simvolu, ermənilər üçün məğlubiyyət, işğal siyasətinin acı ibrət dərsi olaraq tarixləşdi. Zəfər paradı bir daha göstərdi ki, peşəkar ordusu olan xalqın müstəqilliyi əbədidir və bu ordunun gücü onun öz xalqına və dövlətinə sədaqətində, Vətən sevgisindədir.

***Leyla RƏŞİD, "Xalq qəzeti"***